www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-03 (1829) 16 fevral 2026-cı il



## ATU rəhbərliyi Türkiyənin aparıcı universitetlərində olub

İşgüzar səfər zamanı klinikalara, elmi-tədqiqat mərkəzlərinə baş çəkilib, müasir tədris mühiti ilə tanışlıq baş tutub

səh. 2

### Həkimlərimiz “Səhiyyə əlaçısı” döş nişanı ilə təltif edilib

səh. 2

### İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyib

səh. 2

### Əməkdaşımızın ixtirası Almaniyada qeydiyyata alınıb

səh. 6



### Qərbi Azərbaycana qayıdış həm mənəvi, həm də tarixi haqqımızdır

Qərbi Azərbaycan Basarkeçər İcmasının ilk toplantısı keçirilib, “Basarkeçər həkimləri” kitabı təqdim olunub

səh. 3

### Azərbaycanda mövsümi qrip

*Profilaktika ictimai sağlamlıq strategiyasının əsasını təşkil edir*

səh. 4

### İmplant və sümük artırılması eyni vaxtda mümkündür

*Fərman Həsənov: Peşəkar stomatoloqun həm rəssam, həm heykəltəraş, həm də estetik duyumu olmalıdır*

səh. 5



### “Həyatımın illəri və izləri”

Professor Çingiz Quliyevin 85 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

səh. 3

# ATU rəhbərliyi Türkiyənin aparıcı universitetlərində olub

İşgüzar səfər zamanı klinikalara, elmi-tədqiqat mərkəzlərinə baş çəkilib, müasir tədris mühiti ilə tanışlıq baş tutub






"Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2025-ci il tarixli, 673 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev Türkiyə Respublikasına işgüzar səfər ediblər.

Görüşlərdə Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil məsələləri üzrə müşaviri, dosent Nəcibə Nəsibova da iştirak edib.

Əsas diqqət mərkəzində qardaş ölkənin aparıcı ali təhsil və elm mərkəzləri ilə əlaqələrin daha da genişləndirilməsi, tibbi təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində təcrübə mübadiləsinin aparılması, eləcə də birgə elmi-tədqiqat və akademik əməkdaşlıq imkanlarının müzakirəsi olub.

Nümayəndə heyətimiz əvvəlcə Sağlamlıq Elmləri Universitetini ziyarət edib. Universitetin rektoru, professor Kemalettin Aydınla görüşdə tibb təhsilində müasir yanaşmalar, klinik tədrisin təşkili, simulyasiya mərkəzlərinin rolu və rezidentura hazırlığının təkmilləşdirilməsi məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Rektor G.Gəraybəyli və O.İsayev universitetin klinik bazaları, laboratoriyaları və tədris infrastrukturu ilə tanış olub, tətbiq olunan innovativ tədris metodları barədə ətraflı məlumat əldə ediblər.

Sonra Ankara Universiteti ziyarət edilib və rektor, professor Necdet Ünüvarla görüş baş tutub. Görüşdə iki ali təhsil müəssisəsi arasında institusional əməkdaşlığın genişləndirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının inkişafı, birgə elmi layihələrin hazırlanması və beynəlxalq qrant proqramlarında ortaq iştirak imkanları müzakirə olunub.

Görüşün sonunda Azərbaycan Tibb Universiteti və Ankara Universitetinin rektorları tərəfindən birgə fəaliyyət üçün mühüm hüquqi baza yaradan əməkdaşlığa dair rəsmi saziş imzalanıb.

Növbəti səfər Qazi Universitetinə olub. Rektor, professor Uğur Ünal ilə görüş zamanı tibb kadrlarının hazırlanmasında innovativ kurikulumların tətbiqi, rəqəmsal səhiyyə texnologiyalarının tədris prosesinə inteqrasiyası, ortaq konfrans və elmi simpoziumların təşkili kimi məsələlər müzakirə edilib. Nümayəndə heyəti universitetin klinik kompleksi, laboratoriyaları və tələbələr üçün yaradılmış müasir tədris şəraiti ilə tanış olub.

Qardaş ölkəyə işgüzar səfərin sonuncu ünvanı Hacettepe Universiteti olub. Burada da universitetin rektoru, professor Mehmet Cahit Güran ilə görüş keçirilib. Fikir mübadiləsi zamanı əsas diqqət yüksək ixtisaslı tibbi kadr hazırlığı, multidissiplinar elmi araşdırmaların aparılması, beynəlxalq reytinq sistemlərində mövqelərin gücləndirilməsi və akademik mobilliyin artırılmasına yönəldilib.

ATU-nun rəhbər şəxsləri Hacettepe Universitetinin klinik xəstəxanaları, tədqiqat institutları və qabaqcıl tibbi texnologiyalarla təchiz olunmuş mərkəzləri ilə tanış olublar.

Bütün görüşlərdə nümayəndə heyətimiz ATU-nun tarixi, tədris və elmi potensialı, klinik bazası, beynəlxalq əlaqələri və son illərdə əldə etdiyi nailiyyətlər barədə ətraflı təqdimatla çıxış edib. Professor Gəray Gəraybəyli ölkəmizdə ali təhsilin keyfiyyətinin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin imzaladığı müvafiq sərəncam barədə türkiyəli həmkarlarına ətraflı məlumat verib. Rektor beynəlxalq əməkdaşlığın Azərbaycan Tibb Universitetinin inkişaf strategiyasında xüsusi yer tutduğunu vurğulayıb. Qeyd olunub ki, ATU müxtəlif xarici universitetlər və elmi mərkəzlərlə səmərəli əməkdaşlıq edir, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirilir, birgə elmi tədqiqatlar aparılır, beynəlxalq layihələrdə fəal iştirak təmin olunur və bu istiqamət gələcəkdə daha da genişləndiriləcək.

Qeyd edək ki, bu cür səfərlər Azərbaycan və Türkiyə arasında ali təhsil və elm sahəsində strateji tərəfdaşlığın möhkəmlənməsinə, tibbi təhsilin beynəlxalq standartlara uyğun inkişafına və ortaq elmi potensialın gücləndirilməsinə mühüm töhfə verir.





# İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri imtahan prosesini izləyib

**İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri universitetimizdə keçirilən imtahan prosesinin gedişatını izləyiblər. Şuranın sədri, millət vəkili, həkim-qastroenteroloq İlham Məmmədov, "Vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva və "Cəmiyyətin İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli bu məqsədlə İmtahan Mərkəzində olublar.**



İmtahan prosesi zamanı tələbələrin və ekspertlərin fikirlərini də öyrənən Şura üzvləri imtahanların rahat və şəffaf şəraitdə keçirildiyini müşahidə ediblər. İlham Məmmədov bildirib ki, imtahanların təşkili aparılan islahatlar çərçivəsində təkmilləşdirilib və obyektiv qiymətləndirmə üçün bütün zəruri şərait yaradılıb. Onun sözlərinə görə, texniki təminat, avadanlıqlar və ümumi mühit müasir tələblərə cavab verir ki, bu da biliklərin şəffaf və ədalətli qiymətləndirilməsini təmin edir.

Şura sədri deyib ki, tələbələrlə aparılan söhbətlər onların nəzəri biliklərinin imtahan sualları ilə uyğunluğunu göstərib və qiymətləndirmə prosesində şəffaflıq təmin olunub. Bununla yanaşı, Əczaçılığın toksikologiyası və kimya kafedrasında magistrantların şifahi imtahanları professor-müəllim heyətinin iştirakı ilə izlənilib. Magistrantların suallara ətraflı və dolğun cavab verməsi diqqət çəkib. Onlar tədris prosesi və universitetdən məmnun olduqlarını bildiriblər.

Şura üzvləri apellyasiya müraciətlərinin araşdırıldığı otağa da baxış keçiriblər. Qeyd olunub ki, müraciətlərin əksəriyyəti açıq tipli suallarda cavabların düzgün yerləşdirilməməsi ilə bağlıdır. Eyni zamanda suallarda metodiki səhv aşkarlandığı hallarda müvafiq kafedralar üzrə analitik təhlil aparılır və zəruri tədbirlər görülür.

Şura üzvləri Tibb və sağlamlıq elmləri təhsili və Qidalanma və tibbi ekologiya kafedralarında da olublar. Tibb və sağlamlıq elmləri kafedrasında, universitet müəllimlərinin bilik və bacarıqlarını dünya standartlarına uyğun daha da təkmilləşdirmək və bu biliklərin tələbələrə daha keyfiyyətli şəkildə ötürülməsini təmin etmək məqsədilə təlimdə iştirak edən müəllimlərlə maraqlı fikir mübadiləsi olub. Universitetdə pedaqoji peşəkarlığın artırılması, müasir tədris metodlarının tətbiqi, klinik və praktik dərslərin təşkili, qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də ailə həkimliyi institutunun formalaşdırılması və ilkin səhiyyə xidmətlərinin inkişafı məsələləri ilə bağlı müzakirələrdə millət vəkili İlham Məmmədov təlim iştirakçılarının suallarını cavablandırıb. Sual və təkliflərə münasibət bildirən İ.Məmmədov qeyd edib ki, səhiyyə və təhsil sahəsində həyata keçirilən islahatların əsas məqsədi sistemli, dayanıqlı və səmərəli inkişafı təmin etməkdir. Onun sözlərinə görə, icbari tibbi sığortanın tətbiqi və ailə həkimliyi institutunun formalaşdırılması ilkin səhiyyə xidmətlərinin gücləndirilməsi və əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması məqsədini daşıyır.

Sonra Şura üzvləri Qidalanma və tibbi ekologiya kafedrasında olaraq, əməkdaşlarla tədris prosesi barədə müzakirələr aparıblar.

# Həkimlərimiz "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilib

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bir qrup tibb işçisini "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edib. Bununla bağlı müvafiq əmr imzalanıb.**

Əmrə əsasən, səhiyyə sahəsində yüksək peşəkarlıq göstərmiş, uzunmüddətli və səmərəli fəaliyyəti ilə fərqlənən 7 tibb işçisi mükafata layiq görülüb. Təltif olunanlar arasında Azərbaycan Tibb Universitetinin əməkdaşları da var. Onları təqdim edirik:

Anar Namazov - I Cərrahi xəstəliklər kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsinin müdiri. A.Namazov ölkədə transplantologiya sahəsində aparılan müasir tibbi praktikaların tətbiqi və inkişafında fəal iştirak edən mütəxəssislərdən biri kimi tanınır.

Hicran Xıdırova - III Daxili xəstəliklər kafedrasının assistenti, Tədris Terapevtik Klinikanın Hepatologiya şöbəsinin müdiri.

Tamara Quliyeva - Onkologiya kafedrasının dosenti, Tədris Onkoloji Klinikanın direktorunun müalicə işləri üzrə müavini.

Könül Fərhad-zadə - Tədris Onkoloji Klinikanın Poliklinika-diaqnostika şöbəsinin şüa diaqnostikası üzrə həkimi.

Təranə Musayeva - Fizioterapiya və tibbi reabilitasiya kafedrasının dosenti, Tədris Terapevtik Klinikanın konsultativ-diaqnostik poliklinikasının müdiri.

Qeyd edək ki, bu təltif səhiyyə sahəsində çalışan mütəxəssislərin əməyinin dəyərləndirilməsi və onların fəaliyyətinin stimullaşdırılması məqsədi daşıyır.

Döş nişanı ilə təltif olunan bütün həkimlərimizi təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq!

# Stomatologiya fakültəsi geniş profilli həkimlər hazırlayır

**Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva 9 fevral - Beynəlxalq Stomatoloq Günü münasibətilə fakültədə stomatoloji təhsilin məzmunu və əsas prioritetlər barədə məlumat verib.**

Onun sözlərinə görə, Stomatologiya fakültəsi ağız boşluğu və üz-çənə nahiyəsində olan xəstəliklərin diaqnostikası və müalicəsi üzrə 5 illik təhsil (spesialitet) proqramı əsasında geniş profilli həkim-stomatoloqlar hazırlayır. Tədris proqramına fundamental elmlərlə yanaşı, terapevtik, ortopedik, uşaq stomatologiyası, ortodontiya, ağız və üz-çənə cərrahiyyəsi daxildir. Praktiki məşğələlər isə 3-cü kursdan başlayır. Eyni zamanda qulaq-burun-boğaz xəstəlikləri, onkologiya, oftalmologiya, radiologiya, psixiatriya və digər fənlər də tədris olunur.

Dekan bildirib ki, təhsilin əsas xüsusiyyətlərindən biri tələbələrin terapevtik stomatologiya, ortopedik stomatologiya, ağız və üz-çənə cərrahiyyəsi, ortodontiya və uşaq stomatologiyası üzrə ixtisaslaşma imkanlarının geniş olmasıdır. Fakültənin əsas məqsədi dərin fundamental bilikləri praktik bacarıqlarla birləşdirərək, peşəkar tibbi yardım göstərə bilən yüksək ixtisaslı həkimlər hazırlamaqdır.

E.Əliyeva qeyd edib ki, fakültədə baza tibbi biliklərin formalaşdırılması, kliniki hazırlığın gücləndirilməsi, dar ixtisaslaşma üzrə kadr hazırlığı, müasir texnologiya və müalicə metodlarının tətbiqi, eləcə də əhalinin ağız boşluğu gigiyenası sahəsində maarifləndirilməsi əsas vəzifələr sırasındadır.

Təhsilin nəticəsi olaraq məzunlar müstəqil praktik fəaliyyətə başlamağa və ya rezidentura mərhələsində təhsillərini davam etdirməyə hazır olurlar. Dekan, həmçinin bildirib ki, fakültə rəhbərliyi hər zaman tələbələrə dəstək göstərməyə hazırdır.

# Qərbi Azərbaycana qayıdış həm mənəvi, həm də tarixi haqqımızdır

**Qərbi Azərbaycan Basarkeçər İcmasının ilk toplantısı keçirilib, "Basarkeçər həkimləri" kitabı təqdim olunub**



**Fevralın 1-də universitetimizin Tədris Cərrahiyyə Klinikasında Qərbi Azərbaycan Basarkeçər İcmasının ilk toplantısı keçirilib. Tədbiri ATU-nun Nefrologiya kafedrasının 2-ci kurs rezidenti Aysel Məmmədova açıb.**

Dövlət Himni səsləndirildikdən sonra Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Ulu Öndərin Göyçə ictimaiyyəti ilə görüşündən kadrlar, eləcə də Prezident İlham Əliyevin Dədə Ələsgərin abidəsinin açılışı zamanı Göyçə mahalı ilə bağlı səsləndirdiyi fikirlər diqqətə çatdırılıb. Hər iki çıxışda Göyçə mahalının tarixi Azərbaycan torpaqları olduğu, azərbaycanlıların bu torpaqlara mütləq qayıdacağı vurğulanıb.

Tədbirdə giriş sözü ilə Qərbi Azərbaycan Basarkeçər İcmasının sədri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov çıxış edib. O qeyd edib ki, Qərbi Azərbaycana qayıdış məsələsi yalnız tarixi yaddaş mövzusu deyil, artıq dövlətin və xalqın gələcək strateji istiqamətlərindən birinə çevrilib: "Bu gün artıq heç bir şübhə yoxdur ki, Qərbi Azərbaycana qayıdış baş tutacaq. Bu qayıdış bizim həm mənəvi, həm də tarixi haqqımızdır".

Professor vurğulayıb ki, qayıdış prosesi asan deyil və ciddi, ardıcıl, elmi əsaslara söykənən fəaliyyət tələb edir. Onun sözlərinə görə, əvvəlki dövrlərdə buraxılmış əsas səhvlərdən biri bu ideyanın möhkəm ideoloji və elmi baza üzərində qurulmaması olub: "Biz özümüzü dünyaya lazımi səviyyədə tanıda bilməmişik. Qərbi azərbaycanlılar köçəri xalq deyil, onlar Qərbi Azərbaycanın yerli, mədəni və yaradıcı əhalisidir. Bu həqiqət elmi faktlarla sübut olunmalıdır. Qərbi Azərbaycan yalnız bir coğrafi məkan deyil, eyni zamanda böyük bir mədəniyyətin beşiyidir".

N.Bayramov, həmçinin Basarkeçər rayonu üzrə hər kənddən olan həkimlərin siyahıya alındığını diqqətə çatdırıb. Bildirib ki, vaxtilə təxminən 45 min azərbaycanlının yaşadığı Basarkeçər rayonu üzrə 800-dən çox həkim haqqında məlumat toplanılıb. Onlardan 350-yə yaxını elmi dərəcəyə malikdir, 120 nəfəri isə doktorluq dissertasiyası müdafiə etmiş alimlərdir. Bu mütəxəssislər dünyanın müxtəlif ölkələrinin universitet və klinikalarında, sağlamlıq mərkəzlərində fəaliyyət göstərir, bir çoxu klinikalara rəhbərlik edir.

Tədbir zamanı Basarkeçər həkimlərinə həsr olunmuş slaydlar nümayiş etdirilib, professor Nuru Bayramov, Aynur Rüstəmova, Şirazi İbrahimov və İlqar İsmayılın redaktorluğu ilə nəşr olunmuş "Basarkeçər həkimləri" kitabının təqdimatı keçirilib.

Əməkdar elm xadimi və Əməkdar həkim, Rusiya Tibb Elmləri və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər akademiyalarının akademiki, ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi-professoru Vaqif Şadlinski bu toplantının təşkilini yüksək qiymətləndirdiyini söyləyib. O, kitabın yüksək səviyyədə hazırlandığını qeyd edib və bu işin təkcə Basarkeçər rayonu ilə məhdudlaşmamasını, ümumilikdə Qərbi Azərbaycan səviyyəsində davam etdirilməsini məsləhət görüb. Professor bu məqsədlə rəsmi assosiasiyanın yaradılmasının vacibliyini vurğulayıb.

Daha sonra səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edib. O bildirib ki, son 120 ildə Qərbi Azərbaycanda azərbaycanlılara qarşı sistemli etnik təmizləmə aparılıb: "Xüsusilə XX əsrin 80-ci illərinin sonlarında növbəti köç dalğası baş verdi və Ermənistan Respublikasından 300 mindən çox azərbaycanlı öz dədə-baba torpaqlarını tərk etməyə məcbur oldu. Qarabağın işğalı ilə birlikdə ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkün formalaşdı".

Nazir müavini də professor Nuru Bayramovun təşəbbüsünü yüksək qiymətləndirərək, bu işin digər rayonları da əhatə etməli olduğunu bildirib. Onun fikrincə, Qərbi Azərbaycandan olan həkimlər, müəllimlər, mühəndislər və digər sahələrin nümayəndələri haqqında vahid məlumat bazası yaradılmalı, bu baza zamanla geniş bir virtual informasiya xəzinəsinə çevrilməlidir.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov da çıxışında bu təşəbbüsün son dərəcə dəyərli olduğunu bildirib. Qeyd edib ki, gələcəkdə Qərbi Azərbaycan mənşəli həkimlər haqqında daha geniş nəşrlərin hazırlanması və hətta xüsusi bir həkimlər birliyinin yaradılması məqsədəuyğun olar.

Sonda keçmiş təhsil naziri, professor Misir Mərdanov, millət vəkilləri Aydın Mirzəzadə və Məlahət İbrahimqızı çıxış edərək "Basarkeçər həkimləri" kitabının hazırlanmasını yüksək qiymətləndiriblər. Onlar icmanın üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb və bu cür tədbirlərin davamlı olmasını arzulayıblar.

**Qabil ABDULLAYEV**

---

**Yanvarın 30-da Uşaq cərrahiyyəsi kafedrasının professoru, tibb elmləri doktoru Çingiz Quliyevin 85 illik yubileyinə həsr olunmuş "Həyatımın illəri və izləri" adlı, "Uşaqlarda koloproktoloji patologiyalarda müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi-praktik konfrans təşkil olunub.**

# "Həyatımın illəri və izləri"

## Professor Çingiz Quliyevin 85 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

Konfransı II MPF 5-ci kurs tələbəsi Nigar Babayeva açaraq, iştirakçılara tədbirin məzmunu barədə məlumat verib. Rəsmi hissədən öncə Vətənimizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə ilk olaraq Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan çıxış edib. O bildirib ki, uzun illər universitetimizin Uşaq cərrahiyyəsi kafedrasına rəhbərlik etmiş professor Çingiz Quliyevin ölkəmizdə uşaq cərrahiyyəsinin inkişafında müstəsna xidmətləri var: "Çingiz müəllimin fəaliyyəti yalnız yazdığı kitablar, qazandığı elmi adlar və dərc etdirdiyi məqalələrlə məhdudlaşmır. Onun əməyi insan talelərinə, xilas edilmiş həyatlara və yetişdirdiyi nəsillərə söykənir. Həqiqi alim yalnız elm yaradan deyil, həm də ümid verən, yol göstərən, inam aşılayan şəxsiyyətdir".





Sonra M.Sultan rektor, professor Gəray Gəraybəylinin imzaladığı Fəxri Fərmanı yubilyara təqdim edib.

Səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxışında Çingiz Quliyevi həm öz adından, həm də Səhiyyə Nazirliyi adından təbrik edib. Bildirib ki, professor Ç.Quliyev milli uşaq cərrahiyyəsi və ölkədə tibb elminin inkişafına öz adını əbədi olaraq yazdırmış görkəmli şəxsiyyətdir: "Çingiz müəllim milli uşaq cərrahiyyəsi məktəbinin əsasını qoymuş görkəmli alimlərin layiqli davamçısıdır və yorulmaz fəaliyyəti ilə öz elmi məktəbini formalaşdırıb. Mən tələbəlik illərimdə onun icra etdiyi mürəkkəb əməliyyatların şahidi olmuşam".

Nazir müavini Ç.Quliyevin tələbələrə bilik ötürməsindəki əzmkarlığını, pediatrik pasiyentlərlə bağlı məsləhətlərini və uşaq cərrahiyyəsi üzrə əsas dərsliyin müəllifi olmasını yüksək qiymətləndirib. Yubilyara Səhiyyə Nazirliyinin fəxri fərmanı təqdim olunub.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında vurğulayıb ki, professor bir çox tanınmış uşaq cərrahı və mütəxəssis yetişdirib. Deputat öz tələbəlik illərindən xatirələrini bölüşüb: "Onun mühazirələrində və əməliyyatlarında iştirak etmək hər bir tələbə üçün böyük qazanc idi. Bakıda uşaq cərrahiyyəsi sahəsində onun səviyyəsində ikinci bir mütəxəssis yox idi".

Uşaq cərrahiyyəsi kafedrasının müdiri, Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının sədri, professor Ramiz Poluxov isə çıxışında Çingiz Quliyevi sovet dövrünün nüfuzlu elmi məktəblərindən biri olan "Akademik Nikolay Alişafrov məktəbi"nin layiqli yetirməsi kimi təqdim edib. O bildirib ki, Çingiz müəllim kafedraya rəhbərlik etdiyi dövrdə 10 namizədlik və 2 doktorluq dissertasiyası uğurla müdafiə olunub və bu, onun elmi məktəb qurmaq bacarığını göstərir. Professor Poluxov şəxsi təcrübəsindən də danışaraq bildirib ki, ilk elmi dərəcəsini məhz Çingiz müəllimin rəhbərliyi ilə əldə edib.

Sonra professorun həyatı və elmi fəaliyyətinə həsr olunmuş film izlənilib.

Konfrans çərçivəsində Milli Məclisin deputatı Müşfiq Məmmədli, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, ATU-nun Urologiya kafedrasının professoru Südeyf İmamverdiyev, Əməkdar müəllim, ATU-nun Ümumi cərrahiyyə kafedrasının professoru Çərkəz Cəfərov, AMEA-nın müxbir üzvü, I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov, Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin Fakültətiv cərrahiyyə kafedrasının professoru Fazil Abbasov, V.Almazov adına Milli Tibbi Tədqiqatlar Mərkəzinin Fakültətiv cərrahiyyə kafedrasının professoru Vladimir Bairov, Özbəkistan Milli Uşaq Mərkəzinin əməkdaşı Adxam Rahmatullayev təbrik sözü ilə çıxış ediblər.

Sonda professor Çingiz Quliyev tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib: "Bu cür tədbirlərin təşkili kənardan asan görünə bilər. Əslində, bu iş böyük zəhmət və gərgin əməyin nəticəsidir".

Rəsmi hissədən sonra konfrans panel iclaslarla öz işini davam etdirib və uşaqlarda koloproktoloji problemlərin bütün aspektləri geniş şəkildə müzakirə olunub.

Qeyd edək ki, professor Çingiz Quliyev uşaq cərrahiyyəsi sahəsində 350-dən çox elmi məqalənin, 3-dən çox monoqrafiya və dərsliyin, 15-dən artıq tədris-metodik vəsaitin, 7 səmərələşdirici təklifin, 1 ixtiranın müəllifidir. Məqalələri ölkəmizdə və xarici tibbi jurnallarda dərc olunub.

"Uşaq Cərrahlığı", "Uşaq cərrahi patologiyaların atlası", "Azərbaycanda Uşaq Cərrahlığının inkişaf tarixi" adlı dərs vəsaitləri, "Həyatımın illəri və izləri" xatirə kitabı işıq üzü görüb.

**Arif MƏMMƏDLİ**

---

# Elmi tədqiqatların keyfiyyəti tibbi statistika ilə güclənir

## Müxtəlif səhiyyə müəssisələrini əhatə edən təlimlərə start verilib

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyəsi və ATU rəhbərliyinin tapşırığı əsasında universitetimizin Doktorantura şöbəsi tərəfindən növbəti "tibbi statistika" təlimlərinə başlanılıb.**



Təlimlər Tibbi və bioloji fizika kafedrasının müdiri İsmayıl Qafarovun layihəsi əsasında hazırlanıb və iyun ayına qədər davam edəcək. Proqram ilkin mərhələdə tanışlıq xarakterli mühazirələri, növbəti mərhələlərdə isə praktik məşğələlər və tətbiqi statistik analizləri əhatə edir.

Təlimlərin əsas məqsədi tibb və biologiya sahəsində aparılan elmi tədqiqatların metodoloji səviyyəsini yüksəltmək, əldə olunan nəticələrin statistik dürüstlüyünü təmin etmək və elmi əsaslandırmanı gücləndirməkdir. Təlimlərdə statistikaya yalnız hesablamalar toplusu kimi deyil, elmi düşüncə və qərarvermə mədəniyyəti kimi yanaşmanın vacibliyi xüsusi vurğulanır. İştirakçıların diqqətinə çatdırılıb ki, statistik metodların mexaniki tətbiqi elmi dəyər yaratmır, əsas məqsəd düsturların və proqram təminatının arxasında dayanan məntiqin dərindən dərk olunmasıdır.

Klinik qərarların verilməsində statistik yanaşmanın rolu konkret nümunələrlə diqqətə çatdırılıb, statistik səhvlərin real tibbi nəticələrə səbəb ola biləcəyi qeyd edilib.

Təlimlər çərçivəsində statistik hipotezlərin yoxlanılması, I və II növ səhvlərin interpretasiyası, eləcə də "statistik əhəmiyyət" anlayışının mahiyyəti ətraflı şərh edilib. Bildirilib ki, statistik əhəmiyyət hər zaman klinik və praktik əhəmiyyət demək deyil və bu fərqin düzgün qiymətləndirilməsi tədqiqatçının peşəkarlığını müəyyən edən əsas meyarlardandır.

Təlimlərdə ATU-nun doktorantları ilə yanaşı, Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları, müxtəlif elmi-tədqiqat institutlarının, o cümlədən kardiologiya, pediatriya, mamalıq və ginekologiya, oftalmologiya, cərrahiyyə üzrə mütəxəssislər və Respublika Klinik Xəstəxanasının əməkdaşları iştirak edirlər. Ümumilikdə 100-dən çox alim və tədqiqatçının iştirakı tədbirin aktuallığını göstərir.

Qeyd edək ki, "tibbi statistika" təlimləri uzunmüddətli perspektivdə elmi araşdırmaların keyfiyyətinin artırılmasına, gənc alimlərin metodoloji hazırlığının gücləndirilməsinə və beynəlxalq elmi standartlara uyğun tədqiqatların aparılmasına xidmət edir.

# Azərbaycanda mövsümi qrip

## Profilaktika ictimai sağlamlıq strategiyasının əsasını təşkil edir



**Lalə Allahverdiyeva**
*Allerqologiya və immunologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, Əməkdar həkim, tibb elmləri doktoru, professor*

Bütün dünyada payız-qış fəslində mövsümi qrip yoluxucu xəstəliklərin əsas səbəblərindən birinə çevrilir. Qrip hələ də ciddi tibbi-sosial problem olaraq qalır. Bu virus hər il milyonlarla xəstələnmə halına, yüz minlərlə hospitalizasiyaya və xüsusilə risk qrupuna daxil olan şəxslər arasında əhəmiyyətli sayda ölüm hallarına səbəb olur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, hər il dünyada 1 milyarda qədər qripə yoluxma halı qeydə alınır, bunlardan 3-5 milyonu ağır formada keçir, 290-650 mini isə ölümlə nəticələnir. Bu göstəricilər qripin yalnız mövsümi infeksiya deyil, həm də ictimai səhiyyənin mühüm problemi olduğunu təsdiqləyir.

**Mövsümi A qripinin müasir epidemiologiyası**

2025-2026-cı illər mövsümündə ÜST Şimal yarımkürəsində qripin epidemik artımının erkən başladığını və virusların yüksək intensivliklə sirkulyasiya etdiyini qeydə alıb. Epidemik mövsümün erkən başlaması prinsipial əhəmiyyət kəsb edir, bu isə virusun fəal sirkulyasiya müddətini uzadır.

Aşkar edilmiş törədicilərin strukturunda A tipli qrip virusları, əsasən də A(H3N2) yarımtipi üstünlük təşkil edir, bu isə kəskin klinik yükü olan mövsümlər üçün xarakterikdir.

Avropanın bir sıra ölkələrində kəskin respirator virus infeksiyası (KRVİ) əlamətləri olan xəstələrin 50 faizindən çoxunda A qripi virusunun ştammı təsdiqlənib və bu, cari epidemioloji prosesdə həmin virusun aparıcı rolunu göstərir.

**Azərbaycanda epidemioloji vəziyyət**

Azərbaycan ÜST-nin Avropa regionuna daxildir və buna görə də qrip viruslarının sirkulyasiyasının eyni mövsümi qanunauyğunluqlarına məruz qalır. Payız-qış dövründə ölkədə ənənəvi olaraq kəskin respirator virus infeksiyaları ilə əlaqədar tibbi yardıma müraciətlərin artımı müşahidə olunur və xəstəliklər arasında əsas yeri qrip tutur.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və TƏBİB əhalini mütəmadi olaraq mövsümi xəstələnmənin artması və profilaktik tədbirlər barədə məlumatlandırır. Xüsusi vurğulanır ki, ağır gediş və fəsadların inkişafı üçün əsas risk amili məhz A tipli qripdir, bu isə xüsusilə yüksək risk qruplarına aid şəxslər üçün aktualdır.

**Qrip virusu necə yayılır**

Qrip virusu əsasən hava-damcı yolu ilə yayılır. Yoluxmuş şəxs öskürək, asqırma və ya hətta adi danışıq zamanı ətraf mühitə virus tərkibli çox kiçik damcılar ifraz edir və bunlar asanlıqla yayılır. Yoluxmada təmas da əlavə rol oynayır. Virus səthlər üzərində qalır və daha sonra əllərlə burun, ağız və ya gözlərə toxunduqda, orqanizmə daxil olur.

Qripin inkubasiya dövrü adətən 1 gündən 4 günə qədər davam edir. İnsan artıq ilk simptomlar meydana çıxmazdan bir gün əvvəl yoluxucu olur, bu isə infeksiyanın yayılmasına əhəmiyyətli dərəcədə şərait yaradır. Orta hesabla yoluxuculuq dövrü 5-7 gün çəkir, lakin uşaqlarda və immun sistemi zəifləmiş şəxslərdə bu müddət daha uzun ola bilər.

**Qrip özünü necə büruzə verir və ona niyə biganə yanaşmaq olmaz?**

Əksər kəskin respirator infeksiyalardan fərqli olaraq, qrip qəfil və kəskin şəkildə başlayır. Ən xarakterik simptom bədən hərarətinin çox vaxt 38-40 °C-yə qədər sürətlə yüksəlməsidir. Qızdırma güclü ümumi zəiflik, ciddi yorğunluq və halsızlıq hissi ilə müşayiət olunur. Məhz bu simptomlar xəstələr tərəfindən ən çox əzici və yorucu kimi təsvir edilir. Bununla yanaşı, bəzi xəstələrdə digər əlamətlər olsa da, hərarət yüksəlməyə bilər.

Qripin tipik təzahürlərinə əzələ və oynaq ağrıları daxildir. Ağrılar sadə hərəkətləri çətinləşdirəcək dərəcədə intensiv ola bilər. Qripdə başağrısı adətən kəskin olur, alın nahiyəsində və gözlərin arxasında lokalizasiya olunur və davamlı xarakter daşıyır.

Tənəffüs yolları tərəfindən boğazda quruluq və ağrı, quru yorucu öskürək, burun tutulması və ya burun axması müşahidə olunur. Tez-tez üşütmə, titrətmə və soyuqluq hissi qeyd edilir. Bəzi xəstələrdə, xüsusən uşaqlarda xəstəlik tənəffüs yolları ilə məhdudlaşmır, iştahanın azalması, ürəkbulanma, qusma, qarın ağrısı və ishal mümkündür. Bəzən gözlərin qızarması, sulanması, işıqdan qorxma, səsin batması (disfoniya), hətta tam səs itkisi (afoniya) müşahidə olunur.

Xəstəlik zamanı diqqətin azalması, yuxululuq, yaddaşın zəifləməsi və ümumi psixoemosional tükənmə qeyd olunur. Bu əlamətlər virusun və iltihab mediatorlarının orqanizmə sistem təsirini əks etdirir. Qripi digər respirator virus infeksiyalarından fərqləndirən əsas cəhət simptomların qəfil başlaması və daha ağır keçməsidir.

Qrip yalnız tənəffüs yollarının zədələnməsi deyil. Virus sinir, ürək-damar, əzələ və digər orqanları əhatə edən sistem iltihab reaksiyasıdır. Bu səbəbdən, hərarət düşdükdən sonra xəstələrin çoxunda uzun müddət gücsüzlük, diqqətin azalması və ümumi yorğunluq qalır.

Qripin ən böyük təhlükəsi onun fəsadlarıdır. Pnevmoniya, otit, laringit, faringit, traxeit, sinusit, xroniki xəstəliklərin kəskinləşməsi ən çox qrip fonunda inkişaf edir, xüsusən də risk qrupuna daxil olan şəxslərdə.

**Kimlər qripə daha tez-tez yoluxur və daha ağır keçirir?**

Qrip yaş məhdudiyyəti olmayan bir infeksiyadır, hər yaş qrupuna aid olan insan yoluxa bilər. Lakin epidemioloji müşahidələr göstərir ki, yoluxma tezliyi və xəstəliyin ağırlığı yaş qrupları arasında əhəmiyyətli dərəcədə fərqlənir.

Ən yüksək xəstələnmə göstəriciləri ənənəvi olaraq uşaqlar arasında, xüsusilə məktəbəqədər və məktəbyaşlı uşaqlarda qeydə alınır. Bu, kollektivlərdə olma, sıx təmas və gigiyenik vərdişlərin kifayət qədər formalaşmaması ilə bağlıdır. Uşaqlar virusun cəmiyyət daxilində yayılmasında əsas rol oynayır və infeksiyanın ötürülməsinin başlıca "rezervuarı" hesab olunurlar. Uşaqların qrip virusuna qarşı daha çox həssaslığının mühüm səbəbi immun sisteminin funksional yetkin olmamasıdır. Bu isə anadangəlmə və adaptiv antiviral immunitetin effektivliyinin azalması ilə müşayiət edilir və patogenetik olaraq daha yüksək yoluxma tezliyi ilə nəticələnir.

Yaşlı insanlar, xüsusilə 65 yaşdan yuxarı olanlar yoluxma tezliyinə görə deyil, xəstəliyin ağır keçməsi və ağır fəsadların inkişafı baxımından yüksək risk qrupundadırlar. İmmunitetin yaşla əlaqədar zəifləməsi və xroniki xəstəliklərin (ürək-damar, bronx-ağciyər sistemi xəstəlikləri, şəkərli diabet və s.) olması bu yaş qrupunda qripi xüsusilə təhlükəli edir.

Hamilə qadınlar da ayrıca risk qrupuna daxildir. Hamiləlik dövründə immun sistemində baş verən fizioloji dəyişikliklər virus infeksiyalarına, o cümlədən qripə yoluxma həssaslığını artırır və bu infeksiya həm ana, həm də döl üçün risk yaradır.

Məhz bu qruplarda hospitalizasiya və xəstəliyin ağır nəticələri daha çox qeydə alınır.

**Mövsümi A qripinin müalicə və profilaktikası**

Müasir təbabət qripin gedişini yüngülləşdirmək və fəsadların riskini azaltmaq üçün müvafiq vasitələrə malikdir. Lakin müalicənin vaxtında və əsaslandırılmış olması hələ də həlledici məqamdır. Virus infeksiyası zamanı terapiyanın əsasını simptomatik müalicə və göstəriş olduqda həkim tərəfindən təyin edilən antiviral preparatlar təşkil edir.

Ən geniş yayılmış səhvlərdən biri antibiotiklərin özbaşına qəbuludur. Antibiotiklər viruslara təsir etmir və qrip zamanı sağalmanı sürətləndirmir. Üstəlik, onların nəzarətsiz istifadəsi bakteriyaların dözümlülüyünün inkişafına şərait yaradır, mikrobiotanı pozur, toksik və allergik reaksiyalara səbəb ola bilir. Uzunmüddətli perspektivdə bu, artıq nəinki bir xəstə üçün, bütövlükdə səhiyyə sistemi üçün problem yaradır.

Qripin profilaktikası artıq çoxdan fərdi özünəqulluq çərçivəsindən çıxıb. Bu, kollektiv təhlükəsizlik məsələsidir. Qripə qarşı illik vaksinasiya ÜST-nin və milli səhiyyə qurumlarının tövsiyələri ilə təsdiqlənmiş əsas və ən səmərəli profilaktika tədbiri olaraq qalır. Qrip əleyhinə müasir vaksinlər hər il dövr edən ştammlar nəzərə alınmaqla hazırlanır və xəstəliyin ağır gedişi, hospitalizasiya və ölüm riskini azaltmağa yönəlir.

Azərbaycanda qripə qarşı vaksinasiya kampaniyası mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Rəsmi məlumata əsasən, vaksinasiya 2025-ci il oktyabrın 8-dən başlayıb və TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində ödənişsiz əsaslarla aparılır. Beynəlxalq keyfiyyət standartlarına cavab verən müasir və təhlükəsiz vaksinlərdən istifadə olunur.

Vaksinasiya hər zaman yoluxmanın qarşısını tam almır, lakin xəstəliyin ağır keçməsini, hospitalizasiyaların sayını, fəsadları və ölüm ehtimalını əhəmiyyətli dərəcədə azaldır. Bu isə xüsusilə epidemiya zamanı stasionar yardıma daha çox ehtiyacı olan risk qrupları üçün vacibdir.

Qripin bakterial fəsadlarının profilaktikası da xüsusi əhəmiyyət kəsb edir. Virus infeksiyalarının yüksək yayıldığı şəraitdə, xüsusilə yaşlı şəxslər, xroniki xəstəliyi olanlar və siqaret çəkənlər üçün pnevmokok infeksiyasına qarşı vaksinasiya tövsiyə olunur. Belə strategiya ağır pnevmoniyaların və əlverişsiz nəticələrin inkişaf riskini azaltmağa imkan verir.

Vaksinasiyanı əl gigiyenasına riayət etmək, xəstəlik simptomları olduqda maskadan istifadə, özünü pis hiss etdikdə ictimai yerlərə getməmək və otaqların havasını dəyişmək kimi sadə, lakin təsirli tədbirlər tamamlayır.

**Profilaktika ictimai sağlamlıq strategiyası kimi**

Müasir qrip fərdi qərarların cəmiyyətin sağlamlığı ilə nə dərəcədə sıx bağlı olduğunun göstəricisidir. Özünümüalicədən imtina, vaxtında həkimə müraciət, vaksinasiya və profilaktik tövsiyələrə riayət nəinki özünü qorumağa, həm də bütövlükdə infeksiyanın yayılmasını azaltmağa imkan verir.

Dəyişən virus mənzərəsi və zəifləmiş kollektiv immunitet şəraitində qrip "adi mövsümi xəstəlik" olmaqdan çıxır, həm tibb işçiləri, həm də hər bir insan tərəfindən diqqət, məsuliyyət və şüurlu yanaşma tələb edən infeksiyaya çevrilir.

# Xarici dillər kafedrasında "Açıq qapı" günü keçirilib

Fevralın 11-də Xarici dillər kafedrasında "Açıq qapı" günü təşkil olunub. Tədbirin məqsədi xarici dillərin tibb təhsilində rolunu nümayiş etdirmək, kafedranın tədris fəaliyyəti, innovativ metodları və akademik imkanları barədə iştirakçıları məlumatlandırmaq, tələbələrdə xarici dillərə marağı artırmaq, müəllim, tələbə və qonaqlar arasında açıq ünsiyyət mühiti formalaşdırmaq olub.

Tədbirdə universitetimizin rəhbərliyi, müxtəlif kafedralarının nümayəndələri, qonaqlar, müəllim və tələbələr iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədova kafedranın tarixi və fəaliyyəti haqqında məlumat verib. O bildirib ki, kafedra müstəqil olaraq 1943-cü ildən fəaliyyət göstərir. Hazırda 50 əməkdaşın çalışdığı kafedrada ingilis, alman və rus dilləri tədris olunur. Professor, həmçinin ABŞ səfirliyinin dəstəyi ilə Tiffany Tillman tərəfindən 5 ay davam edən təlimlərin təşkil edildiyini, bu təlimlər çərçivəsində əməkdaşların tədrisdə innovativ metodlarla tanış olduqlarını diqqətə çatdırıb.




Tədris işləri üzrə prorektor, professor Anar Ağayev çıxışında müasir dövrdə xarici dil biliyinin artıq əlavə üstünlük deyil, peşəkar zərurətə çevrildiyini vurğulayıb. O qeyd edib ki, xüsusilə tibb sahəsində beynəlxalq elmi mənbələrə çıxış, akademik əməkdaşlıq və qlobal ünsiyyət xarici dil bacarıqları olmadan mümkün deyil. Prorektor bildirib ki, Azərbaycan Tibb Universiteti rəqabətqabiliyyətli və beynəlxalq standartlara uyğun kadrların hazırlanmasını prioritet hesab edir və bu prosesdə Xarici dillər kafedrasının rolu xüsusi əhəmiyyət daşıyır.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan çıxışında elmi fəaliyyət sahəsində xarici dilin əhəmiyyətindən bəhs edərək, akademik yazı bacarıqları, beynəlxalq nəşrlərə çıxış və elmi ünsiyyətin inkişafında dil biliklərinin rolunu ön plana çəkib.

ATU-nun İctimai Nəzarət və Məsləhət Şurasının üzvü, Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Eldar Qocayev öz çıxışında şəxsi təcrübələrindən danışaraq, dil biliklərinin peşəkar inkişafda və müasir həkim modelinin formalaşmasında vacib amillərdən biri olduğunu qeyd edib.

Əcnəbi tələbələrlə iş üzrə dekan, dosent Natiq Bayramov ATU-nun xarici tələbələrin sayına görə ölkədə birinci yerdə olduğunu bildirib. O vurğulayıb ki, bu cür "Açıq qapı" formatlı tədbirlər universitetin tədris mühitini, imkanlarını və akademik potensialını yerli və xarici auditoriyaya daha yaxından təqdim etmək baxımından mühüm əhəmiyyət daşıyır.

Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev də çıxış edərək, xarici dillərin tibbi biliklərin mənimsənilməsi, elmi araşdırmalar və peşəkar inkişaf üçün vacibliyini diqqətə çatdırıb.

Tədbirin sonunda qonaqlar və iştirakçılar Xarici dillər kafedrasında yaradılmış şəraitlə, dərslərin gedişi ilə yaxından tanış olub, kafedrada qurulmuş stendlərə baxıblar.

Qeyd edək ki, "Açıq qapı" günü tələbələrin tibb yönümlü xarici dil bilik və bacarıqlarının inkişafına dəstək olmaqla yanaşı, ATU-da tədris prosesinin keyfiyyətinin yüksəldilməsi və beynəlxalq akademik mühitə inteqrasiyanın gücləndirilməsinə xidmət edir.

**Hər il fevralın 9-u dünyada Beynəlxalq Stomatoloq Günü kimi qeyd olunur. Bu gün diş həkimlərinin cəmiyyətin sağlamlığında oynadığı vacib rolu vurğulamaq və ağız-diş sağlamlığına diqqəti artırmaq məqsədilə təyin edilib.**

# İmplant və sümük artırılması eyni vaxtda mümkündür

## Fərman Həsənov: Peşəkar stomatoloqun həm rəssam, həm heykəltəraş, həm də estetik duyumu olmalıdır



Bu münasibətlə Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının Ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri, implantoloq Fərman Həsənovla söhbətləşdik. O, stomatoloqların peşə fəaliyyəti, ağız-diş sağlamlığının əhəmiyyəti və dental implantologiya sahəsindəki yeniliklər barədə məlumat verdi.

F.Həsənov bildirdi ki, Azərbaycan stomatologiyası uzun illərdir davamlı inkişaf yolundadır və bu gün həm regionda, həm də beynəlxalq səviyyədə rəqabətədavamlı sahələrdən biridir. Onun sözlərinə görə, ölkəmizdə stomatologiya məktəbi 1980-ci illərdən etibarən formalaşmağa başlayıb: "Azərbaycan stomatologiyası bəzi ölkələri, o cümlədən Rusiya stomatologiyasını bir çox sahələrdə qabaqlayır. Azərbaycan mütəxəssisləri Avropa və Amerika stomatologiyası ilə sıx əlaqədədirlər ki, bu da elmi-praktik səviyyənin yüksəlməsində mühüm rol oynayır. MDB ölkələri arasında isə Azərbaycan stomatologiyası aparıcı mövqelərdən birini tutur".

F.Həsənov dental implantologiya sahəsinin son 15-20 ildə böyük irəliləyişlər əldə etdiyini diqqətə çatdırdı: "Əvvəllər tədris proqramlarında yer almayan implantologiya bu gün artıq ayrıca fənn kimi öyrədilir və bir semestrlik dərs yükünü əhatə edir. Müxtəlif şirkətlərlə əməkdaşlıq çərçivəsində tələbələr üçün praktik kurslar təşkil olunur, süni çənələr üzərində məşğələlər keçirilir".

Mütəxəssis etik məsələlər və pasiyent tələbləri ilə bağlı təcrübəsini də bölüşdü: "Bəzən tibbi göstəriş olmadığı halda pasiyentlər əməliyyatın aparılmasında israr edirlər. Bunun bir nümunəsini Amerikada, Nyu-Yorkda iştirak etdiyim dental implantologiya kursu zamanı gördüm. Orada tətbiq olunan bəzi texnologiyalardan əvvəllər Azərbaycanda istifadə etməkdə tərəddüdüm vardı. Həmin vaxtlar bir tanışım uzun illər çıxan protez istifadə edirdi və ciddi sümük atrofiyası ilə üzləşmişdi. O, çıxan protezdən imtina edərək implant qoydurmaqda israr etdi. Onun bu istəyini nəzərə alaraq, Amerikada öyrəndiyim texnologiyanı yoxlamağı təklif etdim. Pasiyent bütün riskləri anlayaraq bu təkliflə razılaşdı".

F.Həsənovun sözlərinə görə, nəticədə alt çənənin arxa və ön hissələrindən götürülən sümük yuxarı çənəyə köçürülüb və implant üçün uyğun şərait yaradılıb. Əməliyyatın nəticələri uğurlu alınıb və pasiyent çıxan protezdən azad olub.

"Həmçinin Azərbaycanda mərhələli və mürəkkəb cərrahi müdaxilə tələb edən əməliyyatlar əvvəllər nadir hallarda icra olunurdu, lakin pasiyentlərin tibbi maariflənməsi ilə bu əməliyyatlar genişlənib. Bəzi prosedurlar aylarla mərhələli şəkildə aparılır, sümük köçürülür və çənə-damaq nahiyəsində rekonstruktiv cərrahiyyə həyata keçirilir", – deyə Fərman Həsənov bildirir.

Həmsöhbətimiz yaş məhdudiyyəti məsələsinə də toxundu: "Dental implantlar yaşdan asılı olmayaraq tətbiq oluna bilər, lakin sümük inkişafı tamamlanmalıdır. Buna görə də 16 yaşdan aşağı şəxslərdə implantasiya tövsiyə edilmir. 16-90 yaş arası isə tibbi göstəriş əsasında implant qoyula bilər".

Mütəxəssis söylədi ki, əng sümüyündə atrofiya səbəbindən implantın tətbiqi çətinləşir və bu halda etaplı sümük köçürmə əməliyyatları aparılır. O, yeni ixtirası ilə bu prosesin qısaldığını diqqətə çatdırdı: "Əngdə, arxa bölgədə sümük atrofiyası olduqda sinus liftinq əməliyyatı aparılır. Əgər sümük qalınlığı 1-2 millimetrdirsə, əvvəlcə sinus liftinq icra edilir, 6 ay gözlənilir, daha sonra implant qoyulur və əlavə 6 aydan sonra protezlənmə həyata keçirilir. Mənim patentim isə bu vaxtı 6 ay qısaltmağa imkan verir. Yəni implant və sümük artırılmasını eyni anda həyata keçirmək mümkündür. Patentimi milliləşdirmişəm, sinus liftinq əməliyyatına səkkiz guşəli ulduzumuz daxil edilib. Onu istənilən rentgen və kompüter tomoqrafiyası müayinəsi zamanı görmək mümkündür".

Peşəkar stomatoloq olmaq üçün tələb olunan bacarıqlardan da danışan F.Həsənov bildirdi ki, yaxşı stomatoloqun həm rəssam, həm heykəltəraş, həm də estetik duyumu olmalıdır: "Plastik cərrahiyyə bacarığı, estetik anlayış və müasir rəqəmsal texnologiyalardan istifadə qabiliyyəti vacibdir. Kompüter tomoqrafiyasını oxuya bilməyən stomatoloq virtual planlama apara bilməz".

Sonda müsahibimiz rəqəmsal texnologiyaların stomatologiyada, xüsusilə cərrahiyyə və protezləmə mərhələlərində böyük rol oynadığını qeyd edərək, bu vasitələrin ölkəmizdə də uğurla tətbiq olunduğunu nəzərə çatdırdı.

**Q.ABDULLAYEV**

# Elmimetriya və startap mövzularına həsr olunan seminar keçirilib



Elmi Tədqiqatların İdarə Olunması Departamentinin təşəbbüsü ilə elmi fəaliyyət, innovasiya və sahibkarlıq düşüncəsini bir araya gətirən seminar keçirilib.

Dosent Sevinc Pənahova çıxışında elmimetriya, elmi nəşrlərin keyfiyyəti və "ATU Jurnalı"nın universitetin akademik nüfuzunun formalaşmasındakı rolu haqqında danışıb. Təqdimat çərçivəsində iştirakçılara Scopus, Web of Science (WoS), EBSCO kimi əsas elmi və elmimetriya platformaları haqqında məlumat verilib. Bu platformalarda şəxsi adla qeydiyyatın üstünlükləri, istifadə qaydaları, CME ballarının toplanması imkanları, resurs bazaları, elmi jurnalların düzgün seçimi və biblioqrafik menecerlərdən istifadə prinsipləri qısa və praktik formada izah olunub.

Proqramın əsas hissəsi dəvətli spiker Rasim Abdullayevin çıxışı olub. O, startapları trend anlayışı kimi deyil, səhiyyə və tibb sisteminin real transformasiya aləti kimi təqdim edib. Çıxışda texnologiyaların klinik praktikaya inteqrasiyası, innovativ həllərin tibbi xidmətlərin keyfiyyətinə təsiri və sahibkarlıq yanaşmasının səhiyyənin davamlı inkişafındakı rolu xüsusi vurğulanıb.

Seminar canlı və interaktiv formatda keçib. İştirakçılar suallar verib, fikir mübadiləsi aparıb, elmin və tibbin gələcəyi ilə bağlı müzakirələr açıblar.

# Fistulektomiya mövzusunda seminar baş tutub



Tədris Cərrahiyyə Klinikasında I Cərrahi xəstəliklər kafedrasının təşkilatçılığı və Rezidentura və magistratura şöbəsinin dəstəyi ilə professor Eldar Əliyevin təqdimatında "Mən fistulektomiyanı necə edirəm" mövzusunda seminar keçirilib. Qeyd edək ki, seminar AMEA-nın müxbir üzvü, professor Nuru Bayramovun rəhbərliyi altında həyata keçirilən layihə çərçivəsində təşkil olunub.

Tədbirin açılışından sonra çıxış edən professor E.Əliyev konkret klinik hallar əsasında fistulektomiya əməliyyatının icra texnikasını iştirakçılara izah edib. Tədbirdə, həmçinin I Mamalıq-ginekologiya kafedrasının professoru Səadət Sultanova çıxış edərək bu cür seminar və vebinarların mama-ginekoloqlar üçün də əhəmiyyətindən danışıb.

Seminarın sonunda iştirakçıların ünvanladığı suallar professor E.Əliyev tərəfindən cavablandırılıb.

# Tələbənin həyatı düzgün diaqnoz və təcili əməliyyatla xilas edilib



Urologiya kafedrasının müdiri, Tədris Cərrahiyyə Klinikasının uroloq-cərrahı, professor Rauf Nağıyevin rəhbərliyi ilə ağır politravma almış 18 yaşlı tələbə üzərində həyati vacib cərrahi əməliyyat icra olunaraq həyatı xilas edilib.

2007-ci il təvəllüdlü, Azərbaycan Dövlət İqtisad Universitetinin I kurs tələbəsi Əsgər Cabbarov imtahana gedərkən ehtiyatsızlıq nəticəsində təxminən 7-8 metr hündürlükdən yol kənarında aparılan tikinti sahəsinin qazıntı hissəsinə yıxılıb və ağır küt travma alıb.

Hadisədən dərhal sonra pasiyent təcili tibbi yardım vasitəsilə şəhər xəstəxanalarından birinə çatdırılıb. Orada baş-beyin və qarın boşluğunun kompüter tomoqrafiyası aparılsa da, ciddi xəsarət aşkar edilmədiyi bildirilib və pasiyentin evə buraxılması tövsiyə olunub. Lakin vəziyyətindən narahat olan yaxınları pasiyenti ATU-nun Tədris Cərrahiyyə Klinikasına gətiriblər. Professor R.Nağıyev tərəfindən aparılan müayinə zamanı pasiyentin vəziyyətinin son dərəcə ağır olduğu müəyyən edilib və təcili cərrahi müdaxilə qərarı verilib. Hətta əməliyyat masasına köçürülərkən pasiyentin arterial təzyiqi kəskin şəkildə enib, huşu itib və klinik ölüm vəziyyəti yaranıb. Reanimasiya şöbəsinin müdiri Məmməd Abasovun operativ müdaxiləsi nəticəsində dərhal reanimasiya tədbirləri həyata keçirilib, pasiyentin vəziyyəti stabilləşdirilərək təcili əməliyyata alınıb.

Əməliyyat zamanı böyrəyin tam şəkildə iki hissəyə parçalandığı, böyrək ətrafı toxumalarda və qarın boşluğunda 1-1,5 litr həcmində laxtalanmış qan, retroperitoneal sahədə isə geniş hematomaların mövcud olduğu aşkarlanıb. Pasiyent üzərində təcili nefrektomiya (böyrəyin xaric edilməsi) əməliyyatı icra olunub.

Əməliyyatdan sonra pasiyent bir neçə gün reanimasiya və intensiv terapiya şöbəsində müalicə alıb. Baş-beyin travması ilə əlaqədar ilkin mərhələdə psixoloji durğunluq müşahidə edilsə də, hazırda ümumi vəziyyəti stabildir, halı qənaətbəxşdir və evə buraxılması planlaşdırılır.

Pasiyent Əsgər Cabbarov bildirir ki, hadisə anını tam xatırlamır. Prokurorluq tərəfindən təqdim edilən müşahidə kameralarının görüntülərindən hadisənin necə baş verdiyini sonradan öyrənib. Onun sözlərinə görə, səhər saatlarında imtahana gedərkən yol kənarında yağış səbəbindən yumşalmış torpaq sürüşüb və nəticədə tikinti sahəsinə yıxılıb.

Pasiyent həyatının xilas edilməsinə və göstərilən yüksək səviyyəli tibbi yardıma görə professor Rauf Nağıyevə və Tədris Cərrahiyyə Klinikasının bütün kollektivinə dərin təşəkkürünü bildirib.

**I Cərrahi xəstəliklər kafedrasının təşkilatçılığı və Rezidentura və magistratura şöbəsinin dəstəyi ilə rezidentlər üçün "Laparoskopik vərdişlər: bazis bacarıqlar (kamera, alətlər, troakarlar və davranış qaydaları)" mövzusunda praktik təlim təşkil olunub.**



# "Laparoskopik bacarıq"lara həsr olunmuş təlim keçirilib

Təlimin açılışında çıxış edən kafedra müdiri, professor Nuru Bayramov laparoskopik cərrahiyyənin müasir tibdə əhəmiyyətindən, minimal invaziv üsulların üstünlüklərindən və gənc mütəxəssislərin bu sahədə praktik bacarıqlara yiyələnməsinin vacibliyindən danışıb.

Rezidentlər üzrə məsul şəxs, tibb elmləri doktoru Elman Əzimov təlimin proqramı, məqsədləri və mərhələləri barədə iştirakçılara ətraflı məlumat verib.

Daha sonra təlimçi Taleh Qasımov tərəfindən laparoskopik avadanlıqlardan düzgün istifadə, kamera və alətlərlə işləmə texnikası, troakarların yerləşdirilməsi və əməliyyat zamanı davranış qaydaları nümayiş etdirilib.

Təlim rezidentlər tərəfindən böyük maraqla qarşılanıb, iştirakçılar praktik məşğələlərdə fəal iştirak edərək suallar veriblər.

# Erkən diaqnostika həlledici rol oynayır

**Rezidentura və magistratura şöbəsi ilə Tədris Onkoloji Klinikanın birgə təşkilatçılığı əsasında rezidentlər və gənc həkimlər üçün "Süd vəzi xərçənginin müasir diaqnostik alqoritmi" mövzusunda elmi mühazirə təşkil olunub.**



Tədbir Rezidentura və magistratura şöbəsi müdirinin müavini, assistent Namiq Xəlilov və klinikanın baş həkimi, onkologiya kafedrasının dosenti Tamara Quliyevanın moderatorluğu ilə keçirilib.

Mühazirəni giriş sözü ilə açan moderatorlar rezidentlərin klinik bilik və bacarıqlarının artırılmasının, erkən diaqnostik yanaşmaların və davamlı tibbi təhsilin müasir səhiyyə sistemində mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

Daha sonra N.Xəlilov mühazirənin mövzusu və məruzəçi barədə məlumat verərək, süd vəzi xərçənginin dünya miqyasında, eləcə də Azərbaycanda qadınlarda ən çox rast gəlinən onkoloji xəstəliklərdən biri olduğunu diqqətə çatdırıb. Bildirilib ki, xəstəliyin erkən mərhələdə aşkarlanması sağqalma göstəricilərinə birbaşa təsir göstərir və bu baxımdan düzgün diaqnostik alqoritmin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Elmi məruzə ilə çıxış edən T.Quliyeva süd vəzi xərçənginin diaqnostikasında müasir yanaşmalar, risk qruplarının müəyyənləşdirilməsi, skrininq proqramlarının rolu və multidissiplinar qərar mexanizmləri barədə ətraflı məlumat verib. O, klinik şübhə ilə yanaşı, radioloji və morfoloji qiymətləndirmənin ardıcıllığının erkən diaqnostikada həlledici rol oynadığını vurğulayıb.

Məruzədə qeyd olunub ki, süd vəzi xərçəngi heterogen bioloji xüsusiyyətlərə malik olub, klinik gedişi şişin molekulyar alt tipindən, histoloji quruluşundan və xəstəliyin mərhələsindən asılı olaraq dəyişir. Bu səbəbdən diaqnostik proses yalnız klinik müayinə ilə məhdudlaşmamalı, görüntüləmə və invaziv metodların ardıcıl tətbiqi əsasında aparılmalıdır.

Mühazirə zamanı süd vəzi xərçənginin diaqnostikasında klinik müayinə və risk faktorlarının qiymətləndirilməsi, radioloji görüntüləmə üsulları (mammoqrafiya, USM və MRT), BI-RADS sisteminə əsaslanan dəyərləndirmə, invaziv diaqnostika metodları (tru-cut və vakuum biopsiya), histopatoloji və immunohistokimyəvi analizlər, eləcə də molekulyar alt tiplərin müəyyən edilməsi kimi əsas mərhələlər xüsusi vurğulanıb.

Çıxışda bildirilib ki, müasir dövrdə süd vəzi xərçənginin diaqnostikası yalnız şişin aşkarlanması ilə məhdudlaşmamalı, onun bioloji davranışının düzgün qiymətləndirilməsi ilə tamamlanmalıdır. Bu yanaşma fərdi müalicə strategiyasının seçilməsinə imkan yaradır.

Tədbirdə klinikanın həkimləri, rezidentlər, tələbələr, gənc tədqiqatçılar, eləcə də digər ixtisaslar üzrə rezidentlər iştirak ediblər. Mühazirə interaktiv formatda keçib, mövzu ətrafında geniş müzakirələr aparılıb.

Tədbir sualların cavablandırılması ilə yekunlaşıb və süd vəzi xərçənginin erkən diaqnostikasının əhalinin maarifləndirilməsi və səhiyyə sisteminin əsas prioritet istiqamətlərindən biri olduğu vurğulanıb.

**Akademik mobillik proqramı çərçivəsində universitetimizin Xarici dillər kafedrasına Qazaxıstanın Semey Tibb Universitetindən qonaqlar gəlib. Kafedranın müdiri, professor Zemfira Məmmədova qonaqlara ATU haqqında ətraflı məlumat verib.**

# Qazaxıstanlı qonaqlar seminarlar keçirib

O bildirib ki, universitet ölkə daxilində və beynəlxalq səviyyədə tanınmış ali təhsil müəssisəsidir, müasir tədris metodlarını tətbiq edir və ali təhsilin keyfiyyətinə dair müvafiq akkreditasiyadan uğurla keçib. Kafedra müdiri, həmçinin akademik mobillik proqramlarının müəllim və tələbələrin dünyagörüşünü genişləndirdiyini, beynəlxalq əməkdaşlığın təhsil mühitinin zənginləşdirilməsində mühüm rol oynadığını vurğulayıb. O belə görüşlərin gələcəkdə daha genişmiqyaslı layihələrin əsasını qoyacağına da ümidvar olduğunu qeyd edib.



Seminar çərçivəsində Semey universitetinin müəllimləri Kadirzisova Şınar Bolatbekovna və Kakimova Zülfiya Amanbekovna akademik mobillik və tədris sahəsində fikir mübadiləsi aparıblar. Akademik mobillik proqramlarının əhəmiyyəti, ali təhsil müəssisələrində tədris prosesinin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, eləcə də müəllim və tələbə mübadiləsinin genişləndirilməsi imkanları müzakirə olunub. Qonaqlar öz universitetlərində tətbiq olunan müasir tədris metodları və akademik mobillik sahəsində əldə olunan təcrübə barədə məlumat veriblər.

Görüş zamanı gələcəkdə birgə seminarların, təlimlərin və elmi əməkdaşlıq layihələrinin həyata keçirilməsi perspektivləri də diqqət mərkəzində olub.

Qeyd edək ki, qonaqlar səfər çərçivəsində "İnklüziv təhsil" mövzusunda seminar da keçiriblər. Tədbirdə inklüziv təhsilin əsas prinsipləri, ali təhsil müəssisələrində tətbiq imkanları, həmçinin bu sahədə beynəlxalq təcrübə barədə ətraflı məlumat verilib.

İnteraktiv müzakirələr və sual-cavab formatında keçən seminar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Tədbir zamanı təhsil prosesində inklüziv yanaşmaların əhəmiyyəti vurğulanıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

**Almaniya Federativ Respublikasının Patent və Ticarət Nişanları İdarəsi (DPMA) ATU-nun dosentinin yeni elmi-texnoloji ixtirasını rəsmi şəkildə qeydiyyata alıb. Nanobiotexnologiya sahəsində mühüm bir yenilik olan bu ixtira, Delphinium brunonianum bitkisinin yarpaq ekstraktından istifadə edərək gümüş nanohissəciklərin (AgNPs) "yaşıl" üsulla sintezini təmin edən xüsusi bir texniki qurğu ilə tanınır.**

# Əməkdaşımızın ixtirası Almaniyada qeydiyyata alınıb

Bu metod ekoloji təhlükəsiz yanaşması ilə diqqət çəkir və texniki yeniliyin hüquqi mühafizəsini təmin edir.



Bundesrepublik Deutschland

Urkunde

über die Eintragung des
Gebrauchsmusters Nr. 20 2025 107 378

Bezeichnung:
Vorrichtung zur Biofabrikation von Silber-Nanopartikeln unter Verwendung von Delphinium brunonianum-Blattextrakt für antidiabetische Anwendungen

IPC:
C22B 11/00

Inhaber/Inhaberin:
Ahmed, Mesaik Mohammed, Tabuk, SA
Al-Harrasi, Ahmed, Nizwa, OM
Ali, Basharat, Karachi, PK
Ali, Sajid, Gilgit, Gilgit Baltistan, PK
Salma, Bushra, Gilgit, Gilgit Baltistan, PK
Khan, Ajmal, Nizwa, OM
Mammadova, Khayala, Masazir, AZ
Hussain, Nusrat, Islamabad, PK
Sthanadar, Iram Alam, Dargai, Malakand, PK
Wei, Wang, Changsha, Hunan, CN
Zubair, Mohammad, Tabuk, SA

Tag der Anmeldung:
28.11.2025

Tag der Eintragung:
20.01.2026

Die Präsidentin des Deutschen Patent- und Markenamts

Eva Schewior

München, 20.01.2026

Die Voraussetzungen der Schutzfähigkeit werden bei der Eintragung eines Gebrauchsmusters nicht geprüft. Den aktuellen Rechtsstand und Schutzumfang entnehmen Sie bitte dem DPMAregister unter www.dpma.de.

Bu ixtiranın hüquqi sahibləri arasında Azərbaycan, Pakistan, Oman, Səudiyyə Ərəbistanı və Çin alimləri yer alır. Azərbaycan tərəfdən layihənin həmmüəllifi Tibbi və bioloji fizika kafedrasının dosenti Xəyalə Məmmədovadır.

Layihə beynəlxalq elmi əməkdaşlıq çərçivəsində həyata keçirilib və müxtəlif elmi məktəblərin bilik və təcrübəsini bir araya gətirib.

Tədqiqatçılar bitki ekstraktı ilə gümüş nitratın reaksiyası nəticəsində əldə edilən nanohissəciklərin 42 nanometr ölçüsündə və sferik formada olduğunu bildiriblər. Bioloji sınaqlar göstərib ki, bu nanohissəciklər şəkərli diabetin müalicəsində əhəmiyyətli olan α-qlükozidaza fermenti ilə aktiv təsir göstərir və həmçinin Helicobacter pylori bakteriyasına qarşı antimikrob təsirə malikdir.

Bu texnologiyanın gələcəkdə şəkərli diabetin və mədə-bağırsaq infeksiyalarının müalicəsi üçün yeni preparatların hazırlanmasında mühüm rol oynaması gözlənilir.

# Şəkərli diabet mövzusu müzakirəyə çıxarılıb

**Rezidentura və magistratura şöbəsi ilə Tədris Terapevtik Klinikanın Endokrinologiya şöbəsinin birgə təşkilatçılığı ilə rezidentlər üçün "Davamlı Qlükoza Monitorinq Sistemləri (Continuous Glucose Monitoring - CGM)" mövzusunda elmi mühazirə təşkil olunub.**

Tədbir II Daxili xəstəliklər kafedrasının rezidentlər üzrə məsul şəxsi, həkim-endokrinoloq, assistent Könül İsmayılova və Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilovun moderatorluğu ilə keçirilib.

Seminarı giriş sözü ilə açan N.Xəlilov tədbir iştirakçılarını salamlayaraq rezidentlərin davamlı təhsilinin əhəmiyyətindən, peşəkar inkişafda nizam-intizama riayət edilməsinin vacibliyindən danışıb. O, Tədris Terapevtik Klinikanın xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərməklə yanaşı, ali təhsilli və ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynadığını, universitet rəhbərliyinin rezidentlərin təhsili və ümumi fəaliyyəti ilə yaxından maraqlandığını qeyd edib.

Çıxışında mövzunun aktuallığına toxunan N.Xəlilov bildirib ki, CGM - qanda qlükoza səviyyəsini gün ərzində fasiləsiz izləməyə imkan verən müasir texnologiya olub, diabetin effektiv idarə olunmasında ən mühüm yeniliklərdən biridir. İlk dəfə ABŞ-da tətbiq edilən bu sistem hazırda bir çox inkişaf etmiş ölkələrdə standart yanaşmalardan biri kimi geniş istifadə olunur. CGM sistemlərinin şəkərli diabet xəstələrinə, hamiləlik diabeti olan qadınlara, uşaq və yaşlı pasiyentlərə tövsiyə edildiyini diqqətə çatdırıb.




Daha sonra II Daxili xəstəliklər kafedrasının dosenti, həkim-endokrinoloq Vəfa Əliyeva çıxış edərək, CGM sistemlərindən dünyada, eləcə də Azərbaycanda istifadə edən pasiyentlərin sayının ildən-ilə artdığını bildirib. Məhz bu səbəbdən mövzunun aktuallığını nəzərə alaraq seminar çərçivəsində CGM sistemləri haqqında ətraflı və elmi əsaslandırılmış məlumatların təqdim edilməsinin məqsədəuyğun olduğunu vurğulayıb.

Moderator Könül İsmayılova isə diqqətə çatdırıb ki, davamlı qlükoza monitorinqi yalnız şəkərli diabetin I və II tiplərində deyil, insulin istifadə edən pasiyentlərdə, qlükoza səviyyəsi tez-tez dəyişən, hipoglikemiya riski yüksək olan və ya intensiv insulin müalicəsi alan xəstələrdə mühüm izləmə vasitəsidir. O, CGM-in dərialtı sensor vasitəsilə 24 saat ərzində qlükozanı ölçdüyünü, barmaq deşilməsinə ehtiyac yaratmadan real vaxt rejimində məlumat verdiyini və şəkər səviyyəsində kəskin dəyişikliklər zamanı xəbərdarlıq siqnalları ilə pasiyent təhlükəsizliyini artırdığını qeyd edib.



Seminarda araşdırmalarda fəal iştirak edən rezident Rüfət İskəndərovun məruzəsi dinlənilib. O, CGM istifadəsinin diabetli pasiyentlərdə HbA1c səviyyəsinə, hipoglikemiya və hiperqlikemiya epizodlarının sayına, eləcə də həyat keyfiyyətinə təsirini göstərən son tədqiqat nəticələrini təqdim edib. CGM sistemlərinin real vaxt məlumatları, trend oxları və həyəcan siqnalları sayəsində qlikemik nəzarətin əhəmiyyətli dərəcədə yaxşılaşdığını xüsusi vurğulayıb, bu texnologiyaların göstəriş və əks-göstərişləri olan pasiyent qrupları haqqında ətraflı məlumat verib.

Seminarın müzakirə hissəsində CGM sistemlərinin qiyməti, əlçatanlığı, istifadə üçün yaş həddi, insulin pompaları ilə inteqrasiya olunmuş hibrid qapalı dövrə sistemləri kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Klinikanın baş həkimi Fəridə Hacıyeva, professor Aytən Məmmədzadə CGM-in geniş tətbiqinin diabetik fəsadların qarşısının alınmasında mühüm rol oynadığını vurğulayıblar. Onlar gələcəkdə CGM sahəsində tədris proqramlarının genişləndirilməsinin və rezidentlərin praktik bacarıqlarının artırılmasının vacibliyini qeyd ediblər.

Seminar iştirakçıların suallarının cavablandırılması və interaktiv müzakirələrlə yekunlaşıb.

# Ürək xəstəliyində gender fərqlərindən bəhs edən mühazirə böyük maraqla qarşılanıb

**Rezidentura və magistratura şöbəsi ilə Tədris Terapevtik Klinikanın Kardiologiya şöbəsinin birgə təşkilatçılığı əsasında rezidentlər üçün “Ürəyin işemik xəstəliyinin gender fərqləri” mövzusunda elmi seminar təşkil olunub.**





Tədbirin moderatoru, ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov çıxış edərək Kardiologiya şöbəsinin həm xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərdiyini, həm də universitetdə yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynadığını vurğulayıb. O bildirib ki, ürək-damar xəstəlikləri, o cümlədən ürəyin işemik xəstəliyi dünya miqyasında olduğu kimi, Azərbaycanda da geniş yayılıb. Son illərdə isə qadınlar arasında da xəstəliyin tezliyinin artması müşahidə olunur. Bu səbəbdən xəstəliyin profilaktikası, erkən diaqnostikası, müalicəsi və reabilitasiyası müasir təbabətin əsas prioritetlərindən biri kimi qalır.

Sonra klinikanın Kardiologiya şöbəsinin müdiri, professor Sona Qəhrəmanova elmi məruzə ilə çıxış edərək ürəyin işemik xəstəliyinin ümumi xəstələnmə və ölüm hallarının əsas səbəblərindən biri olduğunu, bu patologiyanın həm kişilərə, həm də qadınlara əhəmiyyətli dərəcədə təsir göstərdiyini bildirib. O, sinə ağrısının hər iki cinsdə oxşar klinik təzahürlərə malik olmasına baxmayaraq, qadınlarda əlavə simptomların diaqnostikanı çətinləşdirdiyini və bu səbəbdən diaqnostik yanaşma, müalicə strategiyası və klinik nəticələrin cinslər arasında fərqləndiyini vurğulayıb.

Çıxışda, həmçinin ürək-damar xəstəlikləri üçün ənənəvi risk faktorlarının - diabet, arterial hipertenziya, dislipidemiya, piylənmə, siqaretçəkmə və fiziki hərəkətsizliyin hər iki cinsdə mövcud olduğu, lakin qadınlarda daha geniş yayıldığı və klinik təsirinin daha güclü olduğu bildirilib. Miokard infarktı keçirmiş qadınlarda xroniki obstruktiv ağciyər xəstəliyi, konjestif ürək çatışmazlığı, iltihabi markerlərin yüksəlməsi və psixoloji pozuntulara daha çox rast gəlinməsi qeyd olunub.

S.Qəhrəmanova qadınlarda genetik, hormonal və immunoloji xüsusiyyətlərlə əlaqədar qeyri-ənənəvi risk faktorlarının mövcud olduğunu, autoimmun xəstəliklərin isə endotel zədələnməsi və aterosklerozun inkişafına təsir göstərdiyini vurğulayıb. O, hamiləlik və polikistik yumurtalıq sindromu zamanı hormonal disbalansın - aldosteron, estrogen və androgen səviyyələrinin dəyişməsinin arterial təzyiqin artması, insulin müqaviməti və visseral piylənmə ilə əlaqəli olduğunu, həmçinin mənfi hamiləlik nəticələri olan qadınlarda erkən koronar ürək xəstəliyi riskinin artdığını diqqətə çatdırıb.

Professor qadınlarda sinə ağrısı fonunda daha çox rast gəlinən klinik vəziyyətlər -koronar vazospazm, MINOCA, INOCA, spontan koronar arteriya disseksiyası (SCAD), Takotsubo kardiomiopatiyası, eləcə də mikrovaskulyar və epikardial patologiyalar olduğunu vurğulayıb. O, cinslə əlaqəli fizioloji fərqlərin diaqnostik testlərin nəticələrinə təsir etdiyini, menopoz vəziyyəti və fiziki yüklənmə qabiliyyətinin EKQ və stress testlərinin dəqiqliyinə təsir etdiyini, qadınlarda beyin natriuretik peptid səviyyələrinin daha yüksək, troponin artımının isə nisbətən daha az olduğunu qeyd edib. Qeyri-obstruktiv koronar arteriya xəstəliyi olan qadınlarda isə mikrovaskulyar və endotel disfunksiyası, vazospazm və diaqnostik çətinliklər səbəbindən xəstəliyin daha mürəkkəb klinik gedişə malik olduğu bildirilib.

Sonda isə qadınlarda ürək-damar xəstəlikləri barədə məlumatlılığın artırılması, ictimai maarifləndirmə kampaniyalarının təşkili, sağlam həyat tərzinin təşviqi və profilaktik tədbirlərin gücləndirilməsinin mühüm əhəmiyyət daşıdığı qeyd edilib.

Seminar rezidentlər və həkimlər tərəfindən böyük maraqla qarşılanıb, mövzu ətrafında geniş müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Magistratura üzrə qış imtahan sessiyası yekunlaşıb



**Magistratura təhsil səviyyəsi üzrə 2025/26-cı tədris ilinin payız semestrinə aid qış imtahan sessiyası başa çatıb. Sessiya çərçivəsində 20 ixtisaslaşma üzrə 16 kafedrada ümumilikdə 157 imtahan keçirilib.**

Payız semestrində I kurs magistrantları üçün 5 fənn üzrə tədris aparılıb. Tədris olunan fənlərin böyük əksəriyyəti üzrə imtahanlar baza kafedralarda canlı formatda, bilet əsasında təşkil edilib. Yalnız “Akademik yazı və etika” fənnindən imtahanlar imtahan mərkəzində test üsulu ilə keçirilib.

Sessiya müddətində ümumilikdə 187 nəfər magistrant imtahanlarda iştirak edib. 6 nəfər üzrsüz, 3 nəfər isə üzrlü səbəbdən imtahanlarda iştirak etməyib. İmtahanlara qatılmayan magistrantlar üçün fevral ayının ilk həftəsində təkrar imtahanlar təşkil olunub.

Qeyd edək ki, qış imtahan sessiyası mövcud normativ tələblərə uyğun şəkildə, şəffaflığın və obyektivliyin qorunması prinsipləri əsasında həyata keçirilib.

# TEC üzvləri Azərbaycan Təbabəti Muzeyinin 40 illik yubileyində



**Tələbə Elmi Cəmiyyətinin (TEC) elmi rəhbəri, dosent Nərgiz Məmmədova, TEC-in sədri Nigar Babayeva və cəmiyyətin aktiv üzvləri, o cümlədən universitetdə təhsil alan xarici tələbələr Azərbaycan Təbabəti Muzeyinin 40 illik yubileyinə həsr olunmuş tədbirdə iştirak ediblər.**

Tədbirin rəsmi hissəsində çıxış edən TEC-in elmi rəhbəri N.Məmmədova tələbələr üçün yaradılan şəraitə, maarifləndirici ekskursiyalara və səmərəli əməkdaşlığa görə Azərbaycan Tibb Universitetinin rəhbərliyi adından muzeyin rəhbərliyinə və kollektivinə təşəkkürünü bildirib. O bu kimi tədbirlərin tələbələrin peşəkar dünyagörüşünün formalaşmasında, milli tibb irsinin tanıdılmasında və elmi marağın artırılmasında mühüm rol oynadığını vurğulayıb.

Yubiley tədbiri çərçivəsində TEC-in aktiv üzvləri üçün muzey əməkdaşları tərəfindən maraqlı və zəngin ekskursiya təşkil olunub. Tələbələr Azərbaycan təbabətinin inkişaf mərhələləri, tarixi tibbi alətlər, arxiv materialları və tanınmış həkim-alimlərin fəaliyyəti ilə yaxından tanış olublar. Ekskursiya iştirakçılar tərəfindən böyük maraq və məmnunluqla qarşılanıb.

# PAP-test pozitiv çıxarsa, panikaya düşməyin

## Ginekoloq Səidə Vəliyeva qadınlar üçün vacib müayinə metodlarından danışır

**Sağlamlığın qorunmasında, xəstəliklərin vaxtında aşkarlanmasında erkən diaqnostika böyük önəm daşıyır. Ginekologiyada PAP-test (və ya Papanikolau testi, Pap-smear) bu sahədə ən etibarlı skrininq üsullarından biridir. Uşaqlıq boynundakı hüceyrə dəyişikliklərini vaxtında aşkarlayan bu test sayəsində servikal xərçəngin ilkin mərhələlərdə müəyyənləşdirilməsi mümkündür. I Mamalıq-ginekologiya kafedrasının assistenti, ginekoloq Səidə Vəliyeva bildirir ki, PAP-test qadınlarda uşaqlıq boynu xərçənginin erkən aşkarlanması üçün aparılan sadə, ağrısız və çox vacib laborator müayinə üsuludur.**



PAP-test nəticəsində onkoloji markerlərin pozitiv çıxması hüceyrələrdə atipik və ya displastik dəyişikliklərin olduğuna işarədir: “Bu, orqanizmin xərçəngə meyilli vəziyyətdə olduğunu göstərir, amma mütləq xərçəng olduğu mənasına gəlmir. Müayinələr nəticəsində ən çox rast gəlinən markerlərdən biri Human Papilloma Virusunun (HPV) yüksək riskli tipləridir – xüsusilə 16 və 18 növləri. Bunlar servikal xərçəngin əsas səbəbkarlarıdır. Bundan əlavə, p16, Ki-67 və Squamous Cell Carcinoma antigen (SCC) kimi markerlər hüceyrə bölünməsi və dəyişikliklərini qiymətləndirməyə kömək edir”.

**- PAP-test nəticəsində onkomarkerlər pozitiv çıxdıqda, qadınlar çox narahat olur, bəziləri hətta depressiyaya düşür, artıq mütləq xərçəng olacaqlarını düşünürlər. Bu halda növbəti addımlar hansılardır?**

- Əgər test nəticələrində dəyişiklik olarsa, panikaya düşmək lazım deyil. Vaxtında müayinə və izləmə ilə bu hallar nəzarətdə saxlanıla bilər. Belə zaman əlavə müayinə və izləmə mütləqdir. Uşaqlıq boynunda şübhəli dəyişikliklər aşkarlandıqda, ilk növbədə kolposkopiya aparılır. Bu, uşaqlıq boynunun daha dəqiq optik müayinəsidir. Lazım gəldikdə biopsiya götürülür və nəticələrə əsasən müalicə planlaşdırılır.

**- Bəzən xanımlar gileylənir ki, hər 6 aydan bir USM müayinəsindən keçiblər, heç bir problem aşkarlanmayıb. Bəs birdən-birə hüceyrə dəyişiklikləri, xərçəngönü durum necə yarana bilər?**

- Xanımlar bilməlidir ki, ultrasəs müayinəsi təkbaşına tam diaqnostik vasitə deyil. Bəzən ciddi patologiyalar USM-də görünməyə bilər. Buna görə də ginekoloji sağlamlığın qiymətləndirilməsində PAP-test, HPV testi, kolposkopiya və ginekoloji müayinə kimi kompleks yanaşma zəruridir.

Xərçəng və digər ciddi xəstəliklər çox vaxt erkən mərhələdə simptomsuz olur. Yalnız müntəzəm müayinələr sayəsində vaxtında aşkarlanaraq qarşısı alınması mümkündür. Odur ki, heç bir əlamət olmadığı halda belə, hər 9 aydan bir PAP-testdən keçmək, 40 yaşınadək xanımların isə HPV peyvəndi etdirməsi məsləhətdir.

- Yeri gəlmişkən, HPV virusunun geniş yayılmasına səbəb nədir? **Niyə qadınlar bundan qətiyyən şübhələnmir və yalnız virus orqanizmdə özünə yer eldikdən sonra xəbər tuturlar?**

- HPV müasir dövrün ən geniş yayılmış viruslarından biridir və çox zaman heç bir əlamət vermir. Ona görə də xəstələr heç nədən şübhələnmirlər. Əslində, bu virusun bir çox tipləri ciddi problem yaratmır. İmmunitet güclü olduqda, orqanizm özü virusun öhdəsindən gəlir və onu bədəndən atır. Lakin bəzi tipləri (xüsusilə 16, 18, 32) illərlə orqanizmdə qalarsa, nəticədə xərçəngə səbəb ola bilər. Ona görə də HPV testi və vaksinasiyası çox vacibdir.

**- Sonda nə məsləhət görərdiniz, hansı yaşdan etibarən ginekoloqun qapısını tez-tez döymək lazımdır?**

- Qadın orqanizmi fərdi və mürəkkəb bir sistemdir. Eyni simptom hər insanda tamam ayrı səbəblərdən qaynaqlana bilər. Odur ki, heç vaxt başqasının təcrübəsinə əsaslanıb müalicə seçmək olmaz. Ümumiyyətlə, 20 yaşdan yuxarı mütəmadi olaraq PAP-testdən keçmək, ən azı 3 ildə bir dəfə test etdirmək məsləhətdir. 35-40 yaşlarından sonra periodiklik də artmalıdır, heç olmasa, ildə bir dəfə. PAP-testi ilə yanaşı HPV virusunun da yoxlamaq olar. Əgər virus yoxdursa, gənc yaşlarda peyvənd olunmaq çox vacibdir. Artıq intim həyata başlamayan qızlarda, aşağı yaşlarda belə peyvənd tətbiq olunur. Ümumiyyətlə HPV peyvəndi oğlanlara da edilir.

# Vətənin keşiyində dayanan xanımlar

## Hərbi tibb fakültəsinin qız tələbələri oğlanlardan geri qalmadıqlarına əmindir

Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi artıq 26 ildir ki, fəaliyyət göstərir və ölkəmizdə hərbi tibbi kadrların hazırlanması üzrə yeganə ali təhsil müəssisəsi kimi mühüm rol oynayır. Bu illər ərzində minlərlə yüksəkixtisaslı mütəxəssis hazırlanaraq, ölkəmizin güc strukturlarının tibb müəssisələrində xidmətə göndərilib. Fakültənin davamlı və məqsədyönlü fəaliyyəti, müasir tələblərə uyğun kadr hazırlığı və peşəkar müəllim heyəti gənclər arasında bu ixtisasa marağın ildən-ilə artmasına səbəb olub. Hərbi tibb sahəsi həm tibbi bilik, həm də hərbi intizam tələb etdiyindən, bu fakültəyə daxil olan gənclər gələcək fəaliyyətlərinə böyük məsuliyyətlə yanaşırlar.

Ötən il avqustun 1-də yayımlanan rəsmi elan isə fakültənin tarixində yeni və əlamətdar mərhələnin başlanğıcı oldu. İlk dəfə olaraq fakültəyə qızların da qəbulunun həyata keçiriləcəyi ictimaiyyətə açıqlandı, qadınların hərbi tibb sahəsində iştirakının genişləndirilməsi istiqamətində mühüm addım atıldı. Bu qərar cəmiyyət tərəfindən böyük maraqla qarşılandı və qəbul zamanı nəticələr gözləniləndən də yüksək oldu. Çoxsaylı xanım abituriyent hərbi tibb ixtisasını seçərək sənədlərini təqdim etdi və müsabiqədən uğurla keçərək tələbə adını qazandı.

Hazırda I kursda təhsil alan qız tələbələrin fikirlərini, eləcə də bu sahəyə olan maraqlarını öyrənmək məqsədilə onlarla həmsöhbət olduq.

625A-1b qrupunun tələbəsi Asiman Qasımova qəbul imtahanında 626,5 bal toplayıb. Universitetdə keçirilən sessiya imtahanlarında da yüksək nəticələr göstərir.

Bildirir ki, Dövlət İmtahan Mərkəzi nəticələri açıqladıqdan sonra Hərbi tibb fakültəsinə qızların da qəbul olunduğunu öyrənib. Daha sonra yuxarı kurs tələbələri ilə məsləhətləşərək fakültə haqqında ətraflı araşdırmalar aparıb və bunun məhz xəyal etdiyi ixtisas olduğunu anlayaraq yekun qərarını verib: "Bu fakültəyə öz istəyimlə daxil olmuşam və hesab edirəm ki, bu, çox şərəfli bir peşədir. Hər hansı ciddi çətinliklə üzləşəcəyimi düşünmürəm, çünki xanımlar mənəvi və psixoloji baxımdan dözümlüdürlər. Çətin vəziyyətlərdə həm düzgün qərar verə, həm də yaranan çətinliklərə tab gətirə bilərlər. Həkimlik isə cinsindən asılı olmayaraq hər kəs üçün şərəfli bir peşədir".

625A-1a qrupunun tələbəsi Tükəzban Zalova 667,6 balla fakültəyə daxil olub və sessiya imtahanlarında yüksək göstəricilərlə fərqlənir.

O bu ixtisasa marağının əsas səbəblərindən birini atasının hərbçi olması ilə əlaqələndirir. Ailəsində hərbi sahəyə, vətənpərvərliyə xüsusi önəm verildiyini vurğulayan Tükəzban, bu dəyərlərin onun seçimində mühüm rol oynadığını bildirir: "Hərbi sahəni yaxından araşdırdıqca, bu peşəyə olan heyranlığım artdı. Azərbaycan tarixində Tomris, Natəvan, Sara Xatun kimi qadın simalar var və biz onların nəslindən gəlirik. Hərbçi olmaq qadınlar üçün niyə tərəddüd doğurmalıdır? Əksinə, bu sahəni tanıdıqca marağımız daha da artır".

Tükəzban qeyd edir ki, hərbi tibb iki müqəddəs peşəni - həm həkimliyi, həm də hərbçiliyi özündə birləşdirir. Onun fikrincə, fiziki güc baxımından kişilər üstün görünə bilər, lakin emosional dözümlülük və çətin anlarda ani qərarvermə baxımından qadınlar heç də geri qalmır.

625A-4a qrupunun tələbəsi Nurtac Məmmədova qəbul imtahanında 582,5 bal toplayıb. Deyir ki, hərbi sahəyə marağı uşaqlıqdan formalaşıb. Əvvəllər polis olmağı planlaşdırsa da, bu mümkün olmadıqdan sonra hərbi tibb ixtisasını seçib və seçimindən qürur duyur: "Vətən bizi cinsə bölmədiyi üçün onu qorumaqda da cins bölgüsü görmürəm. Biz iki müqəddəs peşəni birləşdiririk - həm həkimik, həm də hərbçi. İnsanlara həyat bəxş edir, eyni zamanda vətəni müdafiə edirik. Çətin anlarda isə özümüzü toparlamağı bacaracağımıza tam əminəm".



625A-5a qrupunun tələbəsi Qamze Keçeli qəbul imtahanında 594 bal toplayıb və həmçinin universitetdə keçirilən sessiya imtahanlarında da yüksək nəticələr göstərir. Həkim olmaq uşaqlıqdan onun ən böyük arzusu olub. Atası vaxtilə hərbçi olmaq istəsə də, buna nail ola bilməyib. Qamze hərbi tibb seçiminin onun üçün xüsusi məna daşıdığını vurğulayır: "Həm uşaqlıqdan həkim olmaq arzumu, həm də atamın hərbçi olmaq arzusunu reallaşdırıram".

625A-4b qrupunun tələbəsi Səkinə Nağıyeva da yüksək balla – 584,8 balla fakültəyə qəbul olunub və hazırda da yaxşı nəticələrlə fərqlənir. Bildirir ki, 11-ci sinifdən etibarən ixtisas seçimi üzərində düşünməyə başlayıb. Əslində müalicə-profilaktika ixtisasını seçmək istəsə də, əmisinin tövsiyəsi ilə hərbi tibbə yönəlib: "Razılaşdım və qəbul olundum. Seçimimdən qətiyyən peşman deyiləm".

Tələbə qızların hər biri gələcəkdə fəaliyyətlərini seçdikləri ixtisas üzrə - hərbi tibb sahəsində davam etdirmək niyyətində olduqlarını bildirir. Onlar bu yolu seçmək istəyən qızlara tərəddüd etməməyi, öz arzularına inanmağı və qərarlarında qətiyyətli olmağı tövsiyə edirlər. Çünki bu seçim yalnız peşə deyil, eyni zamanda vətənə xidmət missiyasıdır.

Onların fikrincə, "hərbi peşə çətindir" və ya "əsasən oğlanlara aiddir" kimi yanaşmalar reallığı əks etdirmir. Əsas meyarlar peşəyə maraq, məsuliyyət hissi və bu sahədə çalışmağa hazır olmaqdır. Qızlar öz ailələrinin tam dəstəyini də xüsusi vurğuladılar.

Sonda isə demək olar ki, Hərbi tibb fakültəsində qızların təhsil alması sadəcə bir yenilik deyil, gələcəyə yönəlmiş mühüm və strateji addımdır. Bu gün auditoriyalarda bilik qazanan bu gənc xanımlar sabah həm peşəkar həkim, həm də Vətənə sadiq hərbi tibb mütəxəssisi kimi Azərbaycan Silahlı Qüvvələrinin inkişafına layiqli töhfələr verəcəklər.

**Aytac ƏSƏDOVA**

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

### KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 2 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,75 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Oftalmologiya kafedrası - 1 yer (0,75 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Qidalanma və tibbi ekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 2 yer
- Ağciyər xəstəlikləri kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 2 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer (0,75 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer (0,75 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın inkişafı" mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

# Gənclər Günü münasibətilə yarış keçirilib



Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) dəstəyi və İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə 2 fevral – Gənclər Gününə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual yarışı keçirilib.

Gənclərin böyük maraq göstərdiyi yarışda universitetin Tərbiyə işləri üzrə prorektoru Mahir Səfərov və THİK-in sədri Qoşqar İsmayılov tələbələrlə görüşüb, onları Gənclər Günü münasibətilə təbrik ediblər.

Prorektor çıxışında tələbələrin hər zaman dövlət və universitet tərəfindən diqqət mərkəzində saxlanıldığını qeyd edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb.

24 suala cavab tələb olunan gərgin mübarizənin yekununda "3 Angry Men" komandası ən yüksək xal toplayaraq birinci yerin sahibi olub. İkinci və üçüncü yerləri isə müvafiq olaraq "Veritas" və "Vastator" komandaları qazanıb. Qaliblər kubok, medal və hədiyyələrlə mükafatlandırılıb.

**Tibb və sağlamlıq elmləri təhsili kafedrası tərəfindən tibb və səhiyyə təhsili sahəsində qiymətləndirmə proseslərinin təkmilləşdirilməsinə yönəlmiş iki mühüm metodik tövsiyə hazırlanaraq nəşr edilib.**

# Yeni metodik tövsiyələr nəşr olunub

"OSKİ/OSPİ: bacarıqların qiymətləndirilməsi metodları və standartları" adlı metodik vəsaitdə klinik və praktik bacarıqların obyektiv strukturlaşdırılmış klinik və praktik imtahanlar vasitəsilə qiymətləndirilməsinin əsas prinsipləri ətraflı şəkildə izah olunur. Nəşrdə imtahan stansiyalarının təşkili, qiymətləndirmə meyarları, eləcə də beynəlxalq standartlara uyğun tətbiq mexanizmləri geniş şəkildə təqdim edilib.




"Alternativ qiymətləndirmə metodları" adlı metodik tövsiyədə isə mini-klinik qiymətləndirmələr, formativ qiymətləndirmə üsulları, bacarıq əsaslı yanaşmalar və müasir təhsil modellərində istifadə olunan alternativ dəyərləndirmə alətləri əhatəli şəkildə şərh olunur.

Hər iki metodik tövsiyə tibb və səhiyyə təhsili sahəsində fəaliyyət göstərən müəllimlər, kafedra əməkdaşları, eləcə də tədris və qiymətləndirmə prosesində iştirak edən mütəxəssislər üçün nəzərdə tutulub və onların praktik fəaliyyətində metodoloji dəstək rolunu oynayacaq.

Hazırda universitetin müxtəlif kafedralarında OSKİ, mini-klinik və digər bacarıq əsaslı qiymətləndirmə üsullarının tətbiqinə başlanılması fonunda bu nəşrlər vahid yanaşmanın formalaşdırılması, qiymətləndirmənin obyektivliyinin və etibarlılığının artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Qeyd olunan metodik vəsaitlər tibb təhsilində bilikdən bacarığa keçidi təmin edən, müasir və keyfiyyətə yönəlmiş qiymətləndirmə mədəniyyətinin inkişafına töhfə verən mühüm metodik resurslar kimi dəyərləndirilir.

### Allah rəhmət eləsin!

Bioloji kimya, Əczaçılıq kimyası, Əczaçılıq toksikologiyası və kimya, Farmakoqnoziya, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedralarının əməkdaşları Əczaçılıq kimyası kafedrasının tədris hissə müdiri, dosent Vaqif İsgəndərova anası **Ləzifə İsgəndərovanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Dürdanə Nağıyevaya bacısı **Xoşqədəm xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tibbi biologiya və tibbi genetika kafedrasının əməkdaşları kafedranın dosenti Rəna Kərimovaya qayınanası **Əfruz Səfiyevanın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları, İmmunologiya şöbəsinin müdiri Afaq Xəlilovaya əmisi **Ramiz Həsənovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Farmakologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Gülnarə Qasımovaya anası **Fəridə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0003
Sayı 800